# 20 Yanvar—Ümumxalq Hüzn Günü yaxınlaşır

## Azərbaycan tarixində silinməz izlər

20 Yanvar—Ümumxalq Hüzn Günü yaxınlaşmaqdadır. Bu münasibətlə rayon polis şöbəsində geniş tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə rayon polis şöbəsinin rəisi polis polkovnik-leytenantı Ehtibar Abduyev açmışdır. Tədbirdə 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur.

Sonra məruzə üçün söz rayon təhsil şöbəsinin məsul işçisi Rasim Bayramova verilmişdir. R. Bayramov məruzəsində XX əsrin sonlarına yaxın Azərbaycanda baş verməkdə olan siyasi proseslərə toxunmuş, SSRİ deyilən böyük imperiyanın çürüməkdə və ölməkdə olan siyasi hakimiyyətinin sonu yaxınlaşdığını qeyd etmişdir. Bu zəifləmə dövründən istifadə edərək Azərbaycan xalqı ilə uzun əsrlər düşmənçilik iddasında olan ermənilər yenidən baş qaldıraraq Azərbaycanın əbədi torpaqlarını zəbt etməyə səy göstərmiş və Dağlıq Qarabağ kartından istifadə etmişlər. Azərbaycan xalqı öz əzəli torpaqlarının bütövlüyünü qorumaq, müstəqillik əldə etmək, milli azadlıq və istiqlal istəyini həyata keçirmək arzusu ilə Bakı küçələrinə çıxmışlar.





Hadisələrin gedişindən qorxaraq M. Qorbaçov başda olmaqla SSRİ rəhbərliyi tərəfindən sovet ordusunun əlahiddə qoşunları dinc əhalinin üstünə yeridilmiş, yanvar ayının 19-dan 20-nə keçən gecə Bakı küçələrinə qan tökülmüşdür. Hətta, bir gecədə 100-dən çox dinc əhali qətlə yetirilmişdir. Sonrakı günlərdə güllə-baran edilən əhalinin sayı daha da artmışdır.

R. Bayramov qeyd etmişdir ki, qan tökülsə də hadisələrin sonrakı gedişi Azəərbaycan xalqının əzəli arzusunun, istiqlal və müstəqillik arzusunun reallaşmasına gətirib çıxarmışdır. Artıq 24 ildir ki, Azərbaycan xalqı müstəqil dövlətini qurmuş və bu dövlət uğurlu inkişaf yolundadır. Bu yolun başlanğıcı isə ümummilli lider Heydər Əliyevin siyasi uzaq görənliyinin nəticəsidir. Xalqımız bu gün müstəqqillik yollarında inamla irəliləyir. Lakin bu yolda tökülən qanlar xalqımızın qəlbində hec zaman unudulmayacaq.

Tədbiri şöbənin rəisi polis polkovnik-leytenantı Ehtibar Abduyev yekunlaşdırdı.

**Fotolar S. Umuyevindir.**

## Tariximizin əbədiyyət səhifəsi



Yanvarın 14-də 10 Saylı Ərazi Vergilər İdarəsinin akt salonunda 20 Yanvar faciəsinə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan idarə rəisi Şahismayıl Bayramov 1988-ci ildə Dağlıq Qarabağda baş qaldırmış erməni separatizminə Kreml rəhbərliyi tərəfindən rəvac verilməsi, 1989-cu ildə SSRİ Ali Sovetinin qərarı ilə DQMV-də yaradılmış Xüsusi İdarə Komitəsinin Azərbaycana qarşı qərəzli mövqeyi sayəsində Dağlıq Qarabağ Muxtar Vilayətinin idarə-müəssisələrinin tədricən Azərbaycanın tabeçiliyindən çıxarılması, azərbaycanlılarının Ermənistandakı tarixi-etnik torpaqlarından tamamilə deportasiya edilməsi, Moskvanın erməni separatçılarını cəzalandırmaq əvəzinə bu separatizmə qarşı Azərbaycan xalqının əlqolunu bağlaması və millətin səbr kasasını daşırması, 1989-cu ilin sonlarında bəzi rayonlarda Xalq Cəbhəsinin hakimiyyəti ələ keçirməsi, Naxçıvanın iranla sərhəddindəki tikanlı məftillərin sökülüb atılması, xalq hərəkatı radikal qanadının Milli Müdafiə Şurası təşkil edilərək nəzarəti öz əlinə alması, 1990-cı ilin əvvəlində Bakıda Sumqayıt ssenarisi əsasında erməni talanları törətməsi, Moskvanın əlinə Azərbaycan xalqını cəzalandırmaq fürsəti düşməsi, nəhayət, 1990-cı ilin əvvəlində Kreml Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün Qanlı Yanvar qırğınını törətməsi barədə ətraflı məlumat verdi.



Mövzu ətrafında çıxış edən şöbə rəisi Elnur Yolçuyev, müfəttiş Orxan Niftalıyev bildirdilər ki, 1990-cı ilin Qanlı Yanvar hadisəsinin Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. O, ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir.

20 Yanvar faciəsi, eyni zamanda həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hüriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub. Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıtsa da, itkilərə məruz qoysa da, onun mənliyini tapdalaya bilmədi, qürurunu sındıra bilmədi, qəhrəmanlıq salnaməsinə yeni bir səhifə yazdı. Elə bir səhifə ki, tariximizin bu səhifəsi imperiya güllələrinin səsindən açılsa da, şəhidlərimizin qanı ilə yazıldı. Həm də əbədi olaraq!

Tədbirin sonunda Faciəni əks etdirən video-lent nümayiş etdirildi.

**N. ATAKİŞİYEV.**

**Fotolar S. Umuyevindir.**

## Anım gününə hazırlıq

İndi respublikamızın hər bir guşəsində 20 Yanvar faciəsinin 25 illiyini qeyd etmək üçün geniş hazırlıq işləri aparılmışdır.

Bu baxımdan T. Yaqubov adına Bum qəsəbə tam orta məktəbində də anım günü ilə əlaqədar aparılan hazırlıq işləri yüksək səviyyədədir. Məktəbin direktoru Məlahət Dadaşova, direktor müavin Kifayət Rəşidova ilə apardığım söhbətlərdən aydın oldu ki, məktəbdə 20 Yanvar faciəsinin 25-ci ildönümünü keçirmək məqsədi ilə 7 nəfərdən ibarət təşkilat komitəsi yaradılmış, tədbirlər planı hazırlanmışdır. Bu münasibətlə sinif rəhbərləri şagirdlər arasında tez-tez söhbətlər aparmış, faciənin yaranma səbəblərindən danışmışlar.

Bu gün 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar məktəbdə yığıncaq keçiriləcək. Məktəbin tarix müəllimi K. Rəşidova Hüzn Gününə həsr olunmuş məruzə ilə çıxış edəcək, müəllimlər öz ürək sözlərini söyləyəcəklər. Şagirdlər tədbirdə şəhidlərə həsr edilmiş şeirlər söyləyəcək, ədəbi-bədii kompozisiyalar nümayiş etdirəcəklər.

Artıq məktəbin foyesində qanlı yanvar gecəsinə həsr edilmiş foto-stend də hazırlanıb asılmışdır.

**Emin BARATOĞLU.**